*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 142-153* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.1.142*

# Fantastik ədəbiyyatda xronotop modelləri və onların poetik funksiyası

**Aydan Nağıyeva**
Bakı Avrasiya Universiteti
E-mail: nagiyeva.99@inbox.ru

**Annotasiya.** Bu məqalədə elmi-fantastik ədəbiyyatda xronotop anlayışının müxtəlif semantik və struktur funksiyaları Pyer Bull, Herbert Uells və Stiven Kinqin əsas əsərləri kontekstində təhlil edilir. Hər üç müəllifin yaradıcılığı zaman və məkanın fərqli ideoloji, fəlsəfi və psixoloji çalarlarla işlənməsi baxımından geniş xronotop spektri təqdim edir. Pyer Bullun yaradıcılığında, xüsusilə, "Meymunlar planeti", "Kanaşima bağı" və "E=mc²" kimi əsərlərində xronotop bəzən texnoloji və sosial tənqid vasitəsi kimi, bəzən isə estetik və kontemplativ bir sahə kimi çıxış edir. "Meymunlar planeti"ndə gələcəkdə cərəyan edən distopik cəmiyyət modeli vasitəsilə insan mədəniyyətinin tənəzzülü əks olunur. "Kanaşima bağı" isə fəlsəfi təfəkkür və Şərq estetikasının təsiri ilə formalaşmış poetik xronotop nümunəsidir. Bullun bu yanaşmaları müxtəlif sivilizasiya modellərinin toqquşması və mümkün sintezini göstərir. Herbert Uellsin "Zaman maşını", "Dünyalar müharibəsi" və "Doktor Moronun adası" kimi əsərlərində xronotop elmi düşüncə ilə sosial narahatlıqların və etik sualların vəhdətində qurulur. Uells zaman və məkanı təkcə macəra müstəvisi kimi deyil, həm də insan təbiətinin sərhədlərini sorğulamaq üçün istifadə edir. Onun xronotopları texnoloji irəliləyişin doğura biləcəyi etik və sosiopolitik problemləri bədii şəkildə canlandırır. Stiven Kinqin "O", "Parıldayan", "11/22/63", "Doctor Sleep", "Heyvan qəbiristanlığı", "Duman" kimi əsərlərində isə xronotop əsasən psixoloji və metafizik qatlarla işlənir. Zaman keçmişin travmaları və indinin yaşamı ilə psixoloji toqquşma vasitəsinə çevrilir. Məkan isə tez-tez yad, təhlükəli və qorxuların materiallaşdığı strukturlar kimi təqdim olunur. Kinqin əsərlərində xronotop şüurun parçalanması, yaddaşın təzyiqləri və metafizik qorxunun estetikası üzərində qurulur. Beləliklə, hər üç yazıçının yaradıcılığında xronotop janr daxilində sabit bir struktur deyil, dinamik, çoxqatlı və dərin mənalı bir komponent kimi çıxış edir. Texnoloji tənqid, ideoloji çəkişmə, mənəvi axtarış və estetik kontemplasiya bu xronotop modellərinin əsas mahiyyətini təşkil edir.
**Açar sözlər:** fantastik ədəbiyyat, xronotop, Stiven Kinq, Herbert Uells, Pyer Bull

**Məqalə tarixçəsi:** göndərilib – 10.01.2025; qəbul edilib – 24.01.2025

# Chronotope models and their poetic functions in fantastic literature

**Aydan Naghiyeva**
Baku Eurasian University
E-mail: nagiyeva.99@inbox.ru

**Abstract.** This article analyzes the various semantic and structural functions of the chronotope in science fiction literature through the lens of major works by Pierre Boulle, Herbert George Wells, and Stephen King. The works of all three authors offer a wide spectrum of chronotopes in which time

and space are shaped by diverse ideological, philosophical, and psychological nuances. In Pierre Boulle's writings-especially in "Planet of the Apes", "The Garden of Kanashima", and "E=mc²" – the chronotope sometimes serves as a vehicle for technological and social critique, and at other times as an aesthetic and contemplative space. In Planet of the Apes, a dystopian future society portrays the decline of human culture. "The Garden of Kanashima" represents a poetic chronotope shaped by philosophical thought and Eastern aesthetics. Boulle's approach illustrates the collision and potential synthesis of different civilizational models. In works by H.G.Wells-such as "The Time Machine", "The War of the Worlds", and "The Island of Doctor Moreau" –the chronotope emerges through a synthesis of scientific reasoning, social anxiety, and ethical inquiry. Time and space are not merely adventure frameworks but serve to question the boundaries of human nature. Wells' chronotopes artistically depict the ethical and sociopolitical problems that may arise from technological advancement. In Stephen King's novels-including "It", "The Shining", "11/22/63", "Doctor Sleep", "Pet Sematary", and "The Mist" – the chronotope is predominantly shaped by psychological and metaphysical dimensions. Time becomes a medium for the clash between past trauma and present life, while space is often portrayed as alien, dangerous, and infused with materialized fears. In King's works, the chronotope is constructed around metaphysical horror, fragmented consciousness, and the pressure of memory. Thus, in the works of all three authors, the chronotope does not function as a fixed structure within the genre but as a dynamic, multilayered, and profoundly meaningful element. Technological critique, ideological confrontation, spiritual quest, and aesthetic contemplation form the essence of these chronotopic models.

**Keywords:** fantasty literature, chronotope, Stephen King, Herbert George Wells, Pierre Boulle

**Article history:** received – 10.01.2025; accepted − 24.01.2025

## Giriş / *Introduction*

Mixail Baxtin tərəfindən irəli sürülən "xronotop" termini ədəbi əsərlərin təhlilində zaman və məkanın qarşılıqlı əlaqəsini və onların əsərin bədii strukturunda oynadığı rolu öyrənmək üçün istifadə olunan mühüm bir nəzəri anlayışdır. Bu anlayış ədəbi mətnlərdə zaman və məkanın təcəssümünün yalnız fiziki koordinatlar deyil, həm də semantik və ideoloji yüklərə malik olduğunu vurğulayır. M.Baxtin "Romanda zaman və xronotop formaları. Tarixi poetikaya dair oçerklər" (1975), "Dostoyevskinin poetikası problemləri" (1963), "Fransua Rablenin yaradıcılığı və orta əsrlər və Renessans xalq mədəniyyəti" (1965) kimi əsərlərində xronotop haqqında geniş məlumatlar verir.

Qədim dövrlərdən müasir dövrə qədər bir çox məfhumlar dəyişsə belə, zamanla məkan arasındakı əlaqəni daim qoruyublar. Dəqiq elmlərdə zaman və məkanın önəmi Albert Eynşteynin nisbilik nəzəriyyəsi ilə xüsusi önəm qazandı, amma Baxtinin də dediyi kimi, biz zaman-məkan əlaqəsinin həmin nəzəriyyədə ifadə etdiyi məna ilə maraqlanmırıq, bizim üçün önəmli sadəcə ədəbi əsərlərdə bununla bağlı fikirlərimizi izah etməyə çalışarkən müəyyən qədər istiqamət verməsi və zamanla məkanın bir-birindən ayrılmazlığını ifadə etməsidir [2, s.315-316].

Fantastik janrın bədii strukturunda xronotop əsərlərin semantik dərinliyini və poetik məzmununu formalaşdırmaq üçün əsas vasitələrdən birinə çevrilir. M.Baxtin xronotopu zamanın məkanlaşması və məkanın zamana çevrilməsi prosesi kimi təyin edir. Bu anlayış fantastik ədəbiyyat üçün xüsusi əhəmiyyət kəsb edir, çünki fantastikanın mahiyyəti reallığın fiziki qanunlarını pozaraq alternativ zaman və məkan yaratmaqda özünü göstərir. Baxtinə görə, hər bir ədəbi janrın özünəməxsus xronotopu mövcuddur.

**Əsas hissə / *Main part***

**1. Stiven Kinq romanlarında xronotopun bədii-estetik həlli yolları**

Stiven Kinqin bədii-estetik üslubu realizm ilə qorxu elementlərinin tarazlı sintezini xarakterizə edir. O, əsasən, ABŞ-ın Şimali Amerika regionu, xüsusilə, Maine ştatında yerləşən kiçik şəhər və qəsəbələrdəki gündəlik reallığı əsərlərində mistik, qorxu və fantastik təsirlər ilə qarışdıraraq oxucuya təqdim edir. Kinqin əsərlərində qəhrəmanların psixoloji portretləri incəliklə işlənir. Belə ki, məkan təsvirləri əsasən canlı və əsərin ideyasının inkişafına xidmət etmə istiqamətində olur. Belə üslub ədəbiyyatşünaslar tərəfindən həm qlobal auditoriya üçün əlçatan, həm də dərin obrazlı mətn kimi qiymətləndirilir. Məhz bu unikal realist-fantastik yanaşma Kinqin əsərlərində xronotop konsepsiyasının işlənməsinə münbit zəmin yaradır, çünki müəllif geniş zaman qatları içində tanış məkanlar quraraq oxucunu həm müasir, həm də mistik ab-havada saxlayır.

Stiven Kinqin "O" romanında xronotop anlayışı konkret bir məkanda, yəni ABŞ-ın Maine ştatında yerləşən Derri adlı kiçik şəhərdə cəmlənir. Əsərin əsas süjeti iki zaman qatında baş verir: birincisi, 1950-ci illərin sonlarında uşaq qəhrəmanların yaşadığı hadisələr: ikincisi isə 1980-ci illərin ortalarında eyni qəhrəmanların yetişkən çağlarında şəhərə qayıdaraq keçmişləri ilə üzləşməsidir. Bu zaman dilimləri arasında 27 illik dövri bir təkrarlanma var: romandakı qorxu simvolu olan Pennivays adlı varlıq hər 27 ildən bir oyanır və şəhəri vahiməyə bürüyür. Beləliklə, zamanın bu siklik quruluşu və məkanın sabitliyi xronotopun bünövrəsini təşkil edir. Derri şəhəri əsərdə təkcə fon kimi yox, hadisələrin fəal iştirakçısı kimi təqdim olunur. Qəhrəmanlar uşaqlıqda kanalizasiya tunellərində qorxu ilə üzləşirlər, illər sonra isə yenidən həmin yerlərə qayıdaraq eyni qorxunun kökünü kəsməyə çalışırlar. Bu təkrar olunan səhnələr-xüsusilə də kanalizasiya sistemləri, köhnə binalar və ictimai kitabxana kimi məkanlar keçmişlə indiki zamanı birləşdirir. Məsələn, Loserlər klubunun üzvləri Pennivaysla ilk dəfə uşaqlıqda kanalizasiya borularında qarşılaşırlar və illər sonra eyni yerdə bu varlıqla bir daha son qarşıdurma baş verir. Beləliklə, xronotop romanda təkcə hadisələrin baş verdiyi zəmin kimi yox, həm də şəhərin yaddaşı, qorxunun mirası və fərdi travmaların daşıyıcısı kimi çıxış edir.

"Parıldayan" (The Shining) romanı "Overlook" adı ilə məşhur dağ otelində keçir. Otelin geniş məkanı və soyuq fasiləsiz qış mövsümü xronotopda sıx birlik təşkil edir. Bu birlik məkanın qapalı izolyasiyası ilə zamanın təkrarlanan qarlı dövrləri vasitəsilə əsərin qorxu atmosferini gücləndirir. Əsərin konkret epizodlarına diqqət yetirdikdə "Overlook" otelinin strukturunda zamanın laylı şəkildə təcəssüm olunduğunu müşahidə etmək mümkündür. Otelin məkan quruluşu, keçmişlə indiki zaman arasında sərhədlərin getdikcə silindiyi bir nöqtəyə çevrilir. Romanın irəliləyən hissələrində Jack Torrensin getdikcə özünə qapandığını və otelin keçmişində baş vermiş faciələrin onun şüuruna sızmağa başladığını görürük. Otelin bar otağında Jackın barmen Lloydla apardığı söhbət bu baxımdan xüsusilə əlamətdardır. Lloyd fiziki reallıqdan çox Jackın psixoloji dağılmasının, içkiyə meylinin və keçmişə bağlılığının təcəssümüdür. Bu dialoqlar zamanı oxucu zamanın geriyə axdığı və Jackin artıq reallıqla əlaqəsinin zəiflədiyi bir nöqtəyə şahid olur. Hər şeydən uzaqda yerləşən, qış mövsümündə tamamilə təcrid olunmuş bu otel keçmişin ağırlığını daşıyan və psixoloji gərginliyi dərinləşdirən canlı bir varlıq kimi çıxış edir. Roman boyunca "Overlook" otelinin xronotopu psixoloji və simvolik səviyyədə dərinləşir. Otelin özünəməxsus "xatirə mexanizmi" var: keçmiş hadisələr ani səhnələr və vizual halüsinasiyalar şəklində yenidən ortaya çıxır. Danny otelin divarları arasında baş vermiş cinayətləri, qorxu və şiddət dolu epizodları əyaniləşdirir. Jack isə bu təsirlərə qarşı müqavimət göstərə bilmir. Beləliklə, zaman və məkan bir-birinə qarışaraq personajların şüurunda qəribə bir spiral yaradır, keçmişin qaranlıq səsləri indiki zamanı udur və ailənin faciəsi bu burulğanda formalaşır.

Stiven Kinqin "11/22/63" romanında xronotop anlayışı zaman səyahəti ideyası üzərində qurulub. Əsərin baş qəhrəmanı olan müəllim Jake Epping 2011-ci ildən bir portal vasitəsilə 1958-ci

ilə ABŞ-ın Maine ştatındakı Lisbon Falls şəhərinə keçid əldə edir. Bu zaman dəyişikliyi sadəcə süjet elementindən ibarət deyil. Zaman dəyişikliyi əsərin əsas strukturunu formalaşdıran xronotopik çərçivənin özəyinə çevrilir. Roman boyu vaxtla məkan arasındakı qarşılıqlı əlaqə, yəni keçmişin sabit məkanlarında baş verən dəyişikliklərin gələcək zaman axarına təsiri xronotopun əsas funksiyasını müəyyən edir. Kennedy sui-qəsdinin qarşısını alma cəhdi və nəticə olaraq yaranan distopik gələcək xronotopun dəyişkənliyini və çoxsəviyyəliliyini ortaya qoyur. Jake 2011-ci ilə qayıtdıqda, keçmişdə etdiyi dəyişikliklərin dünya tarazlığını pozduğunu görür. Yəni zaman və məkanın münasibəti yalnız adi ardıcıllıqla deyil, qarşılıqlı təsir və məsuliyyət prinsipi ilə işləyir. Bu da xronotopun sadəcə süjet üçün fonda qalmadığını, əksinə, romanın fəlsəfi və etik təhlil qatlarını da müəyyən etdiyini göstərir. Beləliklə, xronotop əsərdə zamanın daxili yaddaşı və iradəsi ilə yüklənmiş bir sistem kimi təqdim olunur.

Stiven Kinqin “Qara qüllə” (The Dark Tower) silsiləsi onun bütün yaradıcılığı boyunca toxunduğu müxtəlif süjetlərin və obrazların metapoetik qovşağı kimi çıxış edir. Bu silsilədəki xronotop çoxlaylı və dinamik bir quruluşa malikdir; məkan yalnız fiziki bir koordinat kimi deyil, eyni zamanda zamanın elastik təzahürləri ilə şərtlənmiş semiotik və mifoloji bir sahə kimi təqdim olunur. Əsas qəhrəman Roland Deşeyn post-apokaliptik reallıqla “Qərb” (“Western” üslubunda Amerikan ədəbiyyatı və xüsusi kino üslubu) janrının estetik xüsusiyyətlərini birləşdirən “Orta Dünya” (Mid-World) adlı məkanda qarşımıza çıxır. Bu dünya klassik zaman və məkan ölçülərinə sığmayan, struktur baxımından qeyri-ənənəvi və çoxqatlı xronotop modelidir. Burada zaman nə tamamilə keçmişə, nə də gələcəyə bağlıdır. Zaman daha çox dövretmə prinsipi ilə işləyir: hadisələr təkrarlanır, başlanğıc və son nöqtələr bir-birinə bağlanır. Məkan isə yalnız coğrafi koordinat deyil, həm də psixoloji, metafizik və simvolik qatlarla yüklənmiş çoxölçülü bir sahə kimi təqdim olunur. Bu xüsusiyyətlər Rolandın keçdiyi səhraları, dağları, tərk edilmiş şəhərləri həm xarici reallıq, həm də qəhrəmanın daxili dünyasının ifadəsi kimi anlamamıza imkan verir.

Silsilənin ilk kitabı olan “Silahdar” (“The gunslinger”) romanında Roland sirli və qeyri-müəyyən bir məkanda, “Qara geyimli adam” adlandırılan personajı izləyir. Buradakı xronotopda məkan və zamanın qeyri-dəqiqliyi oxucuda həm nostalji, həm də ekzistensial boşluq hissi yaradır. Rolandın keçdiyi hər məkan-ölü çöllər, dağlar, tərk edilmiş şəhərlər onun daxili travmaları və mifoloji missiyası ilə sinxron şəkildə qurulmuşdur.

Sonrakı “Üçün çəkilişi” (“The Drawing of the Three”), “Quraq torpaqlar” (“The Waste Lands”) və “Cadugər ilə kürə” (“Wizard and Glass”) kimi kitablar bizə Rolandın “ka-tet” adlanan komanda üzvləri ilə birlikdə 1970–80-ci illərin Nyu-Yorku, keçmişin cəngavərlik dünyası, eləcə də paralel reallıqlar arasında keçidlərini göstərir. Bu keçidlər nəticəsində romanın xronotopu daha da mürəkkəbləşir: zamana dair retrospektiv fraqmentlərdə Rolandın uşaqlığı və şəxsi formalaşma mərhələləri təqdim olunur. Eyni zamanda “paralel dünyanın” sosial, psixoloji və metafizik qatları arasında əlaqələr qurulur. Hər dünya özünəməxsus xronotop xüsusiyyətləri daşısa da, onları “Qara qüllə” motivi vahid məqsədyönlü zaman xətti kimi birləşdirir. Ən maraqlı və postmodern xronotop elementlərindən biri də Stiven Kinqin özünün əsərə daxil olmasıdır. Yazıçı 6-cı və 7-ci kitabda öz obrazını Rolandın taleyinə təsir edən personaj kimi təqdim edir. Bu metanarrativ gediş həm müəllif, həm də oxucu üçün reallıqla mətnin sərhədlərini pozur. Kinq burada məkan və zaman kateqoriyalarını yalnız süjet vasitəsi kimi yox, yaradıcılıq prosesinin daxili struktur elementi kimi təqdim edir. Beləliklə, yazıçının digər “O” (It), “Parıltı” (The Shining), “Atlantisin qəlbi” (“Hearts in Atlantis”) və “Salem’s Lot” kimi əsərlərindən tanış obrazlar və motivlər bu silsilədə yenidən peyda olur. Bu isə fərqli romanların xronotoplarının bir-biri ilə “dialoq”a girməsi deməkdir. Kinq burada bir növ öz multikainatını qurur. Beləliklə, silsilənin xronotopu sadəcə zaman və məkan əlaqəsi deyil, ontoloji və epistemoloji axtarışların da mərkəzi kimi araşdırılır.

Stiven Kinqin “Heyvan qəbiristanlığı” (“Pet Sematary”) romanında xronotop iki əsas məkanda cəmlənir: Ludlow (Meyn ştatı) qəsəbəsindəki Creed ailəsinin yaşayış evi və onun yaxınlığında

yerləşən, əvvəlcə ev heyvanları üçün nəzərdə tutulmuş qəbiristanlıq, daha sonra isə Miqmak qəbiləsinə aid tabu yerdə yerləşən sirli torpaq. Bu iki məkan romanda zamanın dövriliyini, ölüm və həyatın pozulmuş balansını, yaddaş və travmanın strukturunu əks etdirən simvolik zaman-məkan sistemləri kimi işləyir. Yazar qəbiristanlıq və sirli torpaq ilə oxucuya müqəddəs və qadağan olunmuş bir xronotop təqdim edir: burada ölüm son deyil, bəzən başlanğıcdır. Ölən pişiyin bu sirli torpaqda dəfni və onun əvvəlkindən fərqli davranışlarla geri dönüşü diqqəti cəlb edir. Sonra Louis eyni ritualı oğlu üçün təkrar edir: oğlunu həmin torpaqda basdırır və təkrar dirilmə baş verir. Dirilmiş Gage artıq insan yerinə daxilən dəyişmiş qaranlıq fiqurdur. Bu hadisə xronotopun maraqlı funksiyalarından birini ortaya qoyur: zamanın "geri axması" bərpaedici yox, deformasiyaya uğradıcı gücdür. Bu, Kinqin əsərdə yaratdığı xronotopun ontoloji və metafizik dərinliyini göstərir. Torpaq "diriltdir", amma həyat gətirmir; zaman pozulur, lakin yenidən qurulmur.

Stiven Kinqin "Doctor Sleep" romanında da məkan "Parıldayan" əsərinin davamı kimi "Overlook" otelidir. Romanda hadisələrin əsas hissəsi Dan Torrensin yetkinlik dövründə baş verir. Əsərin başlanğıcında isə biz onu uşaqlıqdan yenicə çıxmış, travmalarla mübarizə aparan gənc kimi tanıyırıq. Bu cəhətdən əsərdə xronotop iki təbəqəli struktur nümayiş etdirir: bir tərəfdə "Overlook" otelindəki keçmiş travmalar, digər tərəfdə isə Danın indiki zamanda şəfa verici "Doctor Sleep" funksiyasını qazandığı mühit. Danın keçmişi ilə indiki zamanı arasında davamlı keçidlər, əsərin xronotop strukturunda qeyri-xətti zaman anlayışını qabardır. Həmçinin xronotop yalnız məkan-zaman çərçivəsi deyil, həm də yaddaşın fiziki və psixoloji dinamikası kimi çıxış edir. "Doctor Sleep" romanında məkan- "Overlook" otelinin keçmişdəki rolu və zaman-Danın keçmiş travmalarından qurtulmağa çalışdığı indiki an qarşılıqlı şəkildə bir-birini tamamlayır. Bu xronotop quruluşu yalnız süjetin qurulmasına xidmət etmir, eyni zamanda obrazların psixoloji inkişafının və yaddaşın roman daxilində necə işlədiyinin açar mexanizminə çevrilir.

Stiven Kinqin "Dirçəliş" ("Revival") romanının xronotopu 1950-ci illərin Maine ştatındakı Kiçik müqəddəslər (Harlow) şəhərciyindən başlayaraq genişlənir və zamanla realist məkan çərçivəsindən çıxaraq mistik və metafizik sahəyə keçid edir. Romanın əsas qəhrəmanı Ceymi Mortondur və onun uşaqlığı bu kiçik şəhərcikdə keçir. Romanın süjeti boyunca xronotop zaman və məkan baxımından dəyişkən və eyni dərəcədə çevik davranır. Ceyminin uşaqlığı, gənclik illəri və yetkin dövrü boyunca ABŞ-ın müxtəlif yerlərindəki hadisələr ardıcıl təqdim olunur. Roman boyu xronotop həm genişlənir, həm dərinləşir. Ceymi ilə Ceykobsun yolları fərqli zamanlarda və yerlərdə kəsişsə də, bu görüşlər əslində insanın taleyinin qaçılmaz dövrlərini göstərir. "Qara işıq" adlı səhnə, yəni ölümdən sonrakı dünyaya keçid artıq romanın məkan-zaman ölçülərinin ənənəvi çərçivədən çıxdığını, insanın qavrayış sərhədlərinə toxunduğunu simvollaşdırır. Bu mənada əsərdə xronotop insan həyatının mənasını, ölüm və sonsuzluq qarşısında duyulan qorxunu, Tanrının susqunluğu ilə üzləşən insanın metafizik boşluqda çırpınmasını ifadə edir.

"Qübbənin altında" romanının xronotopu ABŞ-ın Maine ştatındakı Chester's Mill adlı kiçik şəhərciyi qəfil əhatə edən görünməz və keçilməz qübbədən ibarətdir. Hadisələrin baş verdiyi an şəhərcik bu qübbə vasitəsilə dünya ilə bütün fiziki və kommunikativ əlaqələrdən tamamilə təcrid olunur. Bu şəraitdə xronotop ikiqat mənalandırılır: məkan ani olaraq sərhədlənir, zaman isə xarici reallıqla bağlarını itirir. Romandakı əsas personajlar məhz bu məhdud məkanda, realistik və gündəlik həyat şərtləri içində, yeni vəziyyətə adaptasiya olmaq üçün mübarizə aparırlar. Məsələn, məktəbdə tətilin ardından şəhərin bir anlıq normal və dəbdəbəli gündəlik reallığı olan səs-küylü sosial həyat qəfil dayanır. Bu məqamdan etibarən məhdud məkana kimi Chester's Mill məktəbinin binasına keçid baş verir və bu yer sosial gərginliyin partladığı mikro-kosmos funksiyasını daşımağa başlayır. Bu bağlamda xronotop yalnız fiziki məkanın deyil, sosial strukturun da deformasiyasını əks etdirir. Konkret səhnələrdə xronotopun əhəmiyyəti daha da qabarıq görünür. Məkan daxilində zaman axını öz ritmində davam etsə də, bu axın məkandan kənara keçə bilmir və nəticədə zaman "qapanmış" bir rejimə keçir. Romanda zamanın müxtəlif mərhələləri arasında daxili zamanın gözlənilmədən qış

havasına çevrilməsi və ya fırtına sonrası şəhər meydanının transformasiyası kimi keçidlər müşahidə olunsa da məkan sabit qalır. Bu əsərdə xronotopun funksiyası həm poetik, həm də fəlsəfi müstəvidə işləyir: xronotop oxucuya gündəlik reallığın qəfil, amansız və izaholunmaz şəkildə təcrid olunmasının yaratdığı psixoloji, sosial və siyasi nəticələri təqdim edir. Eyni zamanda bu xronotop struktur baxımından sabit görünən sosial normaların nə qədər tez alt-üst ola biləcəyini göstərən simvolik bir məkana çevrilir.

"Duman" (The Mist) əsərində xronotopun dar məkanda və intensiv zaman axarında cərəyan etməsi əsərin gərgin atmosferini bədii şəkildə daşıyan əsas mexanizmlərdən biridir. Hadisələr ABŞ-ın Maine ştatında yerləşən Bridgtonda baş verir. Belə ki, qəfil baş qaldıran qəribə bir duman nəticəsində şəhər tamamilə duman altında qalaraq normal dünyadan təcrid olunur. Hekayənin əsas xronotop məkanı isə supermarketdir. Bu məkan sosial psixoloji gərginliyin sıxıldığı simvolik bir mərkəzə çevrilir. Supermarketin içi ilə çöldəki duman arasındakı fiziki və metafizik sərhəd, xronotopun funksiyasını poetik və fəlsəfi dərinlikdə müəyyənləşdirir. Xronotop burada sosial-psixoloji və metaforik elementlərlə də yüklənir. Zaman hissi bu kiçik məkanda yavaş-yavaş pozulur. Xronotop əsərin əsas fəlsəfi sualını da ortaya qoyur: müəyyən olunmamış xarici təhlükə qarşısında insanın sosial və daxili davranışları necə dəyişir? Kinq əsərdə bilinməzlik qarşısında qorxu ilə fərd psixologiyasının necə parçalandığını bizə təqdim edir. Əsərin sonunda qəhrəmanlar şəhərdən çıxmağa cəhd edirlər və dumanın içinə doğru hərəkət edərək yeni bir xronotop kimi nəhayət işıqla qarşılaşırlar. Bu mərhələ yalnız məkanın dəyişməsi deyil, həm də zamanın bərpasıdır. Bu anda məhdud xronotopun psixoloji qapalı dairəsi açılır, zaman yenidən ardıcıllıq və müəyyən məna qazanır.

Steinby xatırladır ki, xronotop ədəbi analiz üçün dəyərli vasitədir. Onun sözləri ilə desək, xronotop "zamanı bədənləşdirir, məkanı isə zamanın təsirinə açıq dinamik sistemə çevirir" [9, s.112]. Kinqin yaradıcılığında bu prinsip xüsusilə personajların daxili aləmində konkretləşir. Xronotop oxucunu zamanın bükülməsi nəticəsində yaranan çoxqatlı reallıqla üz-üzə qoyur. Bu, reallığın yalnız xronoloji ardıcıllıqla deyil, eyni zamanda psixoloji və simvolik qatlarla da təhlil oluna biləcəyini göstərir. Stiven Kinqin bədii-estetik dünyasında xronotopun funksiyası çoxşaxəlidir və əsasdır. O həm poetik atmosfer və metaforik qat yaradır, həm də süjetin strukturunu möhkəmləndirir. Xronotop Kinqin dünyasında yalnız struktur element deyil, həm də dərin poetik və ideya yükü daşıyan mərkəzi komponentə çevrilir.

## 2. Herbert Uells əsərlərində xronotopun funksional səciyyəsi

Herbert Corc Uells dünya elmi-fantastikasının banilərindən hesab olunur və zamanla məkanı birləşdirən xronotop anlayışı onun əsərlərində mərkəzi rol oynayır. Emerson və Holquist xronotopu mətndə zaman və məkan kateqoriyalarının nisbət və xarakterinə görə dilin öyrənilməsi vahidi kimi səciyyələndirir [2, s.269-279]. Uellsin əsərlərində bu nisbət dəyişkənliyi müxtəlif dünya quruluşlarını ortaya qoyur: hər bir romanın süjet və obrazları məhz seçilmiş xronotop daxilində mənalandırılır.

Uellsin "Zaman maşını" romanında xronotop üç əsas qata ayrılır. Birinci qat- Viktoriya dövründə bir elm adamının evində keçirilən elmi müzakirə məkanı olan salon əsərin süjetini açan çərçivə hekayədir. Burada məkan Viktoriya dövrü Londonu, zaman 1890-cı illərdir: bir otaq dolusu adamla gələcək zamanla bağlı hekayə müzakirəsi gedir. İkinci qat – zaman maşını ilə 802, 701-ci ilə səyahət edərək qalaktikanın gələcəyinə keçiddir. Bu səyahət zamanı "zaman dördüncü ölçü" kimi qəbul edilərək məkanla birləşir. Üçüncü qat isə elə həmin gələcək dünyasının özüdür: Eloi və Morloklar yaşayışının utopik görünən, əslində distopik təbiətə malik yeni dünya. "Zaman maşını" xronotopunda zaman səyahəti konsepti ən əsas rola malikdir. Qəhrəman keçmişdə başlayıb gələcəkdə bitən süjet zəncirində həm kainatda fərqlənən nöqtələrə daxil olur, həm də viktorian cəmiyyətinin problemlərini tənqid edir. Burada xronotopun funksiyası ictimai sinif bölgüsünü və onun təbiətə təsirini göstərməkdir. Ehtiyatlı, səssiz Eloilərlə yeraltı, aqressiv Morloklar arasındakı qarşıdurma 19-

cu əsr İngiltərəsinin klassik qarşıdurmasını simvolizə edir. Əsər daxili hadisələr və fərziyələr arası zaman-məkan keçidi Uellsin təkamül nəzəriyyəsi və sosial plüralizmi ideyalarını təsvir edir. Məsələn, Baxtin xronotopun janra uyğun quraşdırıldığını vurğulayır: elmi fantastikada zamanın və məkanın elastikliyi yeni ictimai formaları "praktikada mümkünsüz" ola bilən hekayələrə gətirib çıxarır. Eloi-Morlok dünyasının təqdimində 802,701-ci ildəki peyzaj isə əsərdə elə qurulur ki, oxucu utopiya ilə distopiyanın qovşağını eyni anda yaşayır. Bu məkan-zaman quruluşu sinfi iyerarxiyanı və insanın gələcəkdə süni özünüməhvini simvolizə edir.

"Dünyalar müharibəsi" (The War of the Worlds) romanında Herbert Uells Britaniya imperiyasının kolonial mifini əksinə çevirərək unikal bir imperial xronotop yaradır. Surreydəki pastoral səhnələrdən başlayaraq sənaye və şəhər mərkəzinə keçid dövrün məkan və zaman anlayışlarına uyğun olaraq İngiltərənin özü-özlüyündə təhlükəsizlik və güc simvolu sayılan coğrafi sərhədlərini sarsıdır. Burada məkan əsasən London və onun ətraf əraziləridir, zaman isə 1890-cı illərin son dövrüdür, yəni texnoloji inkişafın və imperiya genişlənməsinin qızğın dövrü.

Uellsin yaratdığı xronotop təkcə məkan-zaman münasibətlərinin dəyişməsini əks etdirmir: o həmçinin texnologiyanın, xüsusən, teleqraf və simsiz rabitənin yaratdığı yeni informasiya axınlarının təsiri ilə mədəni sərhədlərin necə pozulduğunu göstərir. Uells bu texnologiyaları imperialist dünya modelinin mərkəzdən idarə olunma imkanlarını simvolizə edən vasitələr kimi təqdim edir. Aaron Worthun vurğuladığı kimi, Uells teleqraf və simsiz rabitəni "imperial xronotop" yaratmaq üçün bir vasitə kimi işlədərək, ərazi genişlənməsi ilə mədəni məhv arasındakı əlaqəni vurğulayır. Worthun fikrincə, bu xronotopda texnologiya yalnız kommunikasiya vasitəsi deyil, eyni zamanda mədəniyyətin nəzarət altında saxlanılmasına, kolonial təsirin və imperiya ideologiyasının yayılmasına xidmət edir [1, s.413]. Əsərdə Marslıların hücumu, Britaniya imperiyasının digər xalqlara etdiklərinin bədii bir əksidir və xronotop da bu ikili əlaqənin dinamikasına xidmət edir: həm genişlənən bir imperiyanın ambisiyalarını, həm də bu ambisiyaların törətdiyi dağıntını eyni anda göstərir. Uellsin imperial xronotopu həm məkan-zaman koordinatlarının pozulduğu bir sahəni təsvir edir, həm də ideoloji və texnoloji dominantlığın bəşəriyyət üçün hansı fəlakətləri doğura biləcəyini açıq şəkildə göstərir. Əsərin sonunda isə Uells bir paradoks yaradır: Marslılar, texnoloji və hərbi cəhətdən Yer sakinlərindən daha güclü olsalar da, təbiətin, daha dəqiq desək, mikrobların qarşısında aciz qalırlar. Bu isə kolonial xronotopun daha bir ironik qatını açır: texnologiya və imperiya gücü ilə yaradılan üstünlük, təbiətin gözlə görünməyən qüvvələri qarşısında mənasız qalır. Uells beləliklə, həm imperiya mifini dekonstruksiya edir, həm də insanlığın məhdudiyyətlərini göstərir.

"Görünməz adam" (The Invisible Man) romanında xronotop fəal məkandır və insanın şəxsiyyət dəyişimi üzərində qurulur. Əsərdə Griffin elmi təcrübə nəticəsində görünməz olur və bu dəyişmə onun məkan içindəki hərəkətlərini dramatikləşdirir. Xronotopun əsas elementi zamanla məkanın iç-içə keçməsidir: Uellsin xronotopu Viktoriya dövrünün elmi utopiyası ilə onun pis nəticələrini bir araya gətirir. Yazar elm ilə qazanılmış gücün nəzarətsiz buraxıldığı halda baş verə biləcəkləri Griffin sondakı dramatik sonu ilə vurğulayır.

H.C.Uellsin "Doktor Moronun adası" romanında hadisələr tropik bir adada baş verir. Bu ada həm coğrafi, həm də mənəvi baxımdan təcrid olunmuş bir məkandır. Əsərdə məkan sırf ekzotik bir fon olmaqdan çıxır: elmi-nəzarətsiz sınaqların, etik sərhədlərin pozulduğu, cəmiyyətin normalarından uzaq bir təcrübə zonası kimi təqdim olunur. Xronotop izolyasiyada olan laboratoriyanın daxilində cəmləşir. Bu laboratoriya artıq yalnız eksperiment yeri deyil: insanın öz təbiətinə qarşı çıxmaq cəhdinin simvoluna çevrilir. Uells bu məkanda insanın elmlə münasibətinə dair maraqlı suallar qoyur: insan harada dayanmalı, hansı həddi keçməməlidir? Adanın məkan kimi qapalı və xarici aləmdən ayrılmış olması, insaniliklə vəhşiliyin sərhəddə qovuşduğu bir liminal məkan yaradır.

"Ayda ilk insanlar" əsərində xronotop qismən elmi macəra, qismən də kolonial tənqid funksiyasını yerinə yetirir. Uells bu əsərində texnologiya vasitəsilə dünya miqyaslı kosmik səyahət ideyasını irəli sürür və insanın fiziki və mədəni sərhədlərini aşmaq cəhdini nümayiş etdirir. Əsərdə

hadisələr Londonun kapitalist reallığından başlayaraq Ayda yerləşən antropomorf Selenit cəmiyyətinə qədər uzanır və bu şəkildə zaman-məkan xəritəsi genişlənir. Herbert Uellsin "Ayda ilk insanlar" əsərində xronotop bir neçə səviyyədə təqdim olunur. Əvvəla, Yer və Ay arasındakı səyahət prosesi məkan-zaman baxımından boş və açıq bir kontinumu əhatə edir. Bu xətti hərəkət klassik "sərhədin aşılması" mövzusunu bu dəfə kosmik məkana daşıyır. Ayda təqdim olunan cəmiyyət isə özündə texnoloji inkişafla təbii və nisbi harmoniya arasında bir balans yaradır. Bu məkan, utopik görünsə də, yerli (Yerdən gəlmiş) insanlar üçün yad və qəribədir. Ay cəmiyyəti ilə Yer sakinlərinin qarşılaşması, onların öz mədəniyyətlərini üstün hesab edərək Selenitləri idarə etməyə çalışması ilə nəticələnir. Əsərin əsas funksional xronotopu kolonializmin tənqidinə yönəlmişdir. Uells burada Ay mədəniyyətini bir növ Britaniya imperiyasının kolonial siyasətinin güzgüsü kimi təqdim edir.

Herbert Uellsin əsərlərində xronotop təkcə zaman-məkan koordinatları ilə məhdudlaşmır: o, müəllif ideyasının daşıyıcısına və süjetin mənalandırıcı strukturuna çevrilir. Hər bir roman özünəməxsus xronotop quraraq hadisələrin məntiqini, obrazların motivasiyasını və janr çərçivələrinin genişlənməsini təmin edir. Uells xronotopu mədəni-sosial təhlilin fəal alətinə çevirərək Viktoriya imperiyası, texnoloji gələcək və insan təbiəti ilə bağlı fundamental suallar irəli sürür. Nəticədə xronotop onun ədəbiyyatında hadisə ilə məkan, zamanla ideya arasında məntiqi əlaqə yaradan əsas struktur elementidir.

**3. Pyer Bullun yaradıcılığında xronotop və konfiqurasiyaları**

Pyer Bull XX əsr fantastik ədəbiyyatının orijinal simalarından biri kimi tanınır. Onun ədəbi fəaliyyəti elmi fantastikanın formalaşması və fəlsəfi dərinlik qazanmasında mühüm rol oynamışdır. Bullun yaradıcılığında insan və texnologiya münasibətləri, mədəniyyətlərarası toqquşmalar, zamanın nisbi xarakteri və gələcəyin distopik ehtimalları əsas mövzulardan biridir. Bullun əsərləri, xüsusilə "Meymunlar planeti" (La Planète des singes), "E = mc²" və "Kanaşima bağı" (Le Jardin de Kanashima) kimi nümunələr fantastik ədəbiyyatda xronotopun necə çevik və çoxfunksiyalı şəkildə istifadə oluna biləcəyini nümayiş etdirir. Bullun elmi-fantastik əsərlərində zaman-məkan münasibətləri sadəcə arxa fon deyil, insanın müasirlik və yadlaşma ilə qarşılaşdığı fəal təcrübə sahəsidir. Bu mənada, xronotop anlayışı Baxtinin yazar yaradıcılığının mahiyyətini dərk etmək üçün xronotopun açar rolunu oynaması prinsipinə uyğun gəlir [2, s.212-215].

"Meymunlar planeti" əsəri, həm klassik elmi fantastikanın, həm də sosial fəlsəfənin tələblərinə cavab verən çoxqatlı məkan-zaman konfiqurasiyasına malikdir. Əsərdə kosmik gəmi ilə yola çıxan astronavt Ulyss Meru (Ulysse Mérou) özünü yad bir planetdə tapır. Bu planet, yəni Soror insanlara bənzəyən, lakin intellektual və texnoloji baxımdan daha inkişaf etmiş meymunlar tərəfindən idarə olunur. Məkan burada yalnız fiziki cəhətdən fərqli bir planet deyil, həm də mədəni və bioloji tərsinə çevrilmiş reallıqdır. Zaman aspektindən baxdıqda, əsərdə ikili zaman anlayışı mövcuddur. Birincisi, qəhrəmanın şəxsi zamanı-onun yaşadığı, müşahidə etdiyi zaman. İkincisi isə Yer planetində keçən zaman- daha geniş kozmik miqyasda zamanın nisbiliyi prinsipinə əsaslanan struktur. Ulyssin Yerə dönərkən bəşəriyyətin artıq tənəzzülə uğraması zamanın yalnız xətti deyil, həm də dövri və qeyri-adi transformasiyalarla xarakterizə olunduğunu göstərir [6, s.113-115].

Əsərdə təqdim olunan Soror cəmiyyətinin strukturu altında irqçilik, bioloji üstünlük ideologiyası və yad olanın (bu halda insanın) məhv edilməsinə yönəlmiş totalitar meyillər gizlənir. Bu baxımdan, xronotop utopik dekorasiyada distopik mahiyyətin formalaşdığı mühit kimi çıxış edir. Zaman burada ideoloji vasitəyə çevrilir-keçmişin, bu günün və gələcəyin tarix yazımı yalnız dominant meymun cəmiyyətinin prizmasından təqdim olunur. Qəhrəmanın fərqli zaman şüuru onu bu sistemlə üz-üzə gətirir və oxucuya mədəni yaddaş və tarixi qavrayışın nə qədər manipulyativ ola biləcəyini göstərir [3, s.194-196]. Əsərdə xronotop yalnız fon və ya struktur elementi kimi deyil, həm də ideoloji müstəvidə qarşıdurmanı kəskinləşdirən vasitə kimi çıxış edir. İnsanın meymun tərəfindən aşağı varlıq kimi qavranılması, onu heyvani instinktlərlə izah edən bioloji determinizmə əsaslanır.

Bu, xronotopun antropoloji fəlsəfə ilə qovuşduğu nöqtədir. Əsərdə zamanın nisbiliyi və paradoksallığı əsas motivlərdəndir. Ulyssin Yerə qayıtdıqdan sonra planetin artıq meymunlar tərəfindən idarə olunduğunu görməsi, yalnız fiziki zamanın keçməsini deyil, həm də sivilizasiyanın tənəzzülünün zamana kodlaşdırılmasını göstərir.

Fantastik ədəbiyyatda xronotop anlayışı yalnız zaman və məkanın təsviri ilə məhdudlaşmır, əksinə insanın düşüncə dünyasının, ideyalarının və duyğularının məkan-zamanla əlaqəsini dinamik bir proses kimi əks etdirir. Bu baxımdan Pyer Bullunun "$E=mc^2$" adlı hekayə toplusu əsəri elmi fantastikanın yalnız texniki və elmi ideyaların deyil, həm də ekzistensial və fəlsəfi problemlərin təqdim edildiyi bir məkan-zaman quruluşu kimi çıxış edir. Patrik Kovinin "$E=mc^2$ mənim sevgilim" ($E=mc^2$ mon amour) əsəri isə xronotopu romantik və psixoloji müstəvidə simvolik səviyyədə təqdim etməklə elmi fantastika ilə romantik fəlsəfənin vəhdətini bizə təqdim edir. Bu əsərlərdə xronotop insan düşüncəsinin sərhədlərini aşaraq həm romantik, həm də elmi-fəlsəfi təzahürləri bir araya gətirir.

Bullun "$E=mc^2$" əsərindəki hekayələr, xüsusilə "$E=mc^2$ və ya bir ideyanın romanı" ("$E=mc^2$ ou le roman d'une idée"), "Sevgi və cazibəsi" ("L'amour et la pesanteur") və "Ay sakinləri" ("Les Luniens") xronotopun klassik fizika və romantik duyğular arasında körpü rolunu oynadığını göstərir. Məsələn, "Sevgi və cazibəsi" hekayəsində çəkisizlik şəraiti təkcə fiziki məkan deyil, həm də münasibətlərin və emosiyaların "asılı olduğu" bir mühitdir. Burada xronotop yalnız süni peykin texniki quruluşu ilə məhdudlaşmır, eyni zamanda münasibətlərin qeyri-müəyyən və dəyişkən xarakterini ifadə edən bir metaforaya çevrilir. Bull məkan və zaman anlayışlarını yalnız elmi qanunauyğunluqların sərhədləri daxilində deyil, insan münasibətlərinin və şüurun dinamikasında da işləyir [4, s.45-46].

"$E=mc^2$ və ya bir ideyanın romanı" hekayəsində isə xronotop konsepti daha geniş, kosmik bir miqyasda işlənir. Burada zaman, yalnız saat və təqvimlə ölçülən bir kəmiyyət deyil, həm də bir ideyanın, yəni Eynşteynin məşhur tənliyinin inanca və mifə çevrildiyi prosesin axarıdır. Bull burada zamanın və məkanın yalnız fiziki reallıqlarını deyil, həm də simvolik və mifik qatlarını vurğulayır. Əsərin qəhrəmanı Enriko Luçesin ulduzlardan enerji toplamaq və kosmik ölçüdə bir dönüşüm yaratmaq cəhdi elmin sərhədsizliyini və insan zehninin zaman və məkana necə nüfuz edə biləcəyini göstərir [4, s.89]. "Ay sakinləri" hekayəsində isə zaman siyasi və ideoloji baxışların formalaşdığı tarixi fonda, həm reallığın, həm də təsəvvürün məhsulu kimi təqdim olunur [4, s.73].

Patrik Kovinin "$E=mc^2$ mənim sevgilim" əsəri isə Bullun təqdim etdiyi xronotop modelinə yeni bir təbəqə əlavə edir. Kovinin əsərində xronotop anlayışı klassik zaman-məkan konfiqurasiyalarından kənara çıxaraq insan təfəkkürünün və duyğularının mikro-kosmosuna yönəlir. Burada baş verən hadisələr həm real zamana, həm də subyektiv zamanın (psixoloji zamanın) axarına əsaslanır. Hadisələrin fiziki ardıcıllığından çox, qəhrəmanın iç dünyasında zamanın necə təhrif olunması diqqət mərkəzindədir. Əsərin qəhrəmanları Daniel və Laurendir. Danielin elmə, xüsusilə də fizika və fəlsəfəyə marağı onun düşüncə tərzinə təsir etsə də, bu maraq daha çox simvolik və psixoloji çalarlarla təqdim olunur. Əsərdə zaman və məkanın romantik və psixoloji qavrayışı elmi terminologiya ilə paralellər qurmaq üçün simvolik şəkildə işlədilir. Yazıçı yanaşmasında məkan və zaman artıq sabit deyil, nisbi və elastikdir [7, s.101-103]. Əsərdə xronotop həm laboratoriya məkanında, yəni konkretlik və ölçülə bilən müstəvidə, həm də romantik münasibətin qeyri-müəyyənlik və ehtimallarla dolu sahəsində formalaşır. Kovinin bu əsərində də xronotop sevgi, zaman və elm arasında kompleks əlaqələrin ifadə vasitəsinə çevrilir [7, s.88]. Bull və Kovinin əsərlərində xronotop anlayışının işlənmə formaları bir-birini tamamlayır: Bull elmi ideyaların mifik və fəlsəfi qatlarını vurğulayan geniş bir miqyas qurarkən, Kovin məkan və zamanın romantik və psixoloji ölçülərini detallı şəkildə işləyir.

Pyer Bullun "Kanaşima bağı" (Le Jardin de Kanashima, 1964) romanı onun digər elmi-fantastik əsərlərindən fərqli olaraq daha çox fəlsəfi və metaforik yükə malikdir. Əsər müharibədən sonrakı dövrdə Yaponiyada yerləşən bir bağın ətrafında cərəyan edir. Bağ-klassik yapon estetikası və fəlsəfəsinin daşıyıcısı kimi burada təkcə fiziki məkan deyil, həm də dərin mənəvi və fəlsəfi məkan

kimi təqdim olunur. Bu mənada "Kanaşima bağı" əsərində xronotop mənəvi transformasiyanın baş verdiyi poetik sahəyə çevrilir [5, s.203-205]. Xronotop burada fiziki təbiət ilə insan ruhu arasındakı harmoniyanın ifadəsinə çevrilir. Əsərdə hadisələrin əsasən bağ daxilində və ya ona yaxın məkanlarda baş verməsi zamanın sanki filmlərdə olduğu kimi "dayandırılmış" və ya "yavaşladılmış" şəkildə təqdiminə imkan yaradır. Klassik xronotop modellərində dinamizm və süjetin irəliləməsi üçün istifadə edilən zaman axını burada demək olar ki, dayandırılır. Bunun əvəzində, romanın atmosferi "şəkil kimi zaman" (temps-image) estetikası ilə qurulur: hər bir detalın təfərrüatla təsviri hadisələrin deyil, təəssüratların ön plana çıxarılması, düşüncənin və kontemplasiyanın başlıca struktur prinsipi kimi işlədilməsi müşahidə olunur [8, s.147-148]. "Kanaşima bağı" əsərində xronotop klassik zaman-məkan oxundan fərqlənir və daha çox ekzistensial "ani"nin (l"instant) fəlsəfi reallaşmasına xidmət edir. Qəhrəmanın keçmişi, bu günü və gələcəyi bu bağda birləşir və zamanın dövri deyil, konsentrik modelə əsaslandığı təsəvvürü yaranır. Bu isə romanın strukturunda zamanın xətti olmamasına, yəni məkan daxilində zamanın sıfırlandığı və yaxud daha dərin səviyyədə yaşandığı bir təcrübənin estetikasına işarədir.

## Nəticə / *Conclusion*

Ədəbiyyatda xronotop süjetin və strukturun əsasını təşkil edən mühüm elementdir. Baxtin xronotopu janrların formalaşmasında aparıcı struktur komponenti kimi təqdim edirdi. Kinqin əsərlərində isə xronotop süjetin zaman və məkan ölçülərində təşkili üçün baza rolunu oynayır. Xronotop janrın quruluşunda da mühüm yer tutur. Müxtəlif janrlar özlərinə məxsus xronotoplarla kodlaşdırılır. "O", "Parıldayan", "Qübbənin altında" kimi qorxu janrında olan əsərlərdə məkan adətən qapalı və izolyasiya olunmuş olur, zaman isə dövri və təkrarlayıcı motivlərlə yüklənir. Stiven Kinqin yaradıcılığında xronotop yalnız fon və ya bədii detal deyil, həm də əsas ideya, obraz və psixoloji gerçəkliyin daşıyıcısıdır. Hər bir roman konkret məkanı (Derri, Overlook oteli, Chester's Mill və s.) müəyyən zaman kəsiyində təqdim edərək süjet xəttini mürəkkəbləşdirir. Xronotoplar Kinqin janrlar arasında sərbəst hərəkət etməsinə şərait yaradır, qorxu elementlərini realizm çərçivəsində, fantastik qatları isə poetik və fəlsəfi reallıqla birləşdirməyə imkan verir.

Herbert Uellsin romançılığında xronotoplar passiv fon deyil, fəal poetik vasitədir: onlar süjetin quruluşunu, obrazların mənalı hərəkət trayektoriyalarını və ideyanın formalaşma məntiqini müəyyən edir. Hər bir Uells romanında zaman və məkanın konkret konfiqurasiyası oxucunu müəyyən intellektual perspektivə yönəldir. Baxtinə görə, xronotop yazının necə baş verə biləcəyini mümkün edən struktur sahədir. Uells bu "mümkünetmə sahəsi"nə texnologiyanı, sosial narahatlıqları və mədəni dəyərləri daxil edərək ədəbi təsvirin sərhədlərini genişləndirir. Beləliklə, onun əsərlərində xronotopun funksiyası təkcə realizm və fantastikanı uzlaşdırmaq deyil, həm də utopik və distopik düşüncəni cəmiyyətin reallıqları ilə dialoqa cəlb etməkdir.

Pyer Bullun fantastik və fəlsəfi əsərlərində xronotop fərqli formalarda işlənir: "Meymunlar planeti" əsərində ideoloji və distopik qarşıdurmanın mühüm komponenti kimi, "$E=mc^2$" əsərində elmi təcrübələrin sintez məkanı kimi, "Kanaşima bağı" romanında isə poetik və kontemplativ harmoniya sahəsi kimi çıxış edir. Bullun yaradıcılığında xronotop təkcə süjetin struktur elementi deyil, həm də dərin fəlsəfi, ideoloji və estetik məna daşıyan funksional alətdir. Bu baxımdan, onun əsərlərində zaman və məkanın təqdimatı oxucuya yalnız hadisələri deyil, həm də insanın varoluş şəraitini dərindən düşünmək imkanı verir.

**Ədəbiyyat / *References***


1. Aslami Z., Review of Imperial Media: Colonial Networks and Information Technologies in the British Literary Imagination, 1857-1918 /A. Worth // Nineteenth-Century Literature. – 2015. 9 iyun. – Vol. 70, №3. – p.413-416. URL:https://www.jstor.org/stable/26377123
2. Bakhtin, M.M. *The Dialogic Imagination: Four Essays*/tərc. ed. C.Emerson, M. Holqusit, Austin: University of Texas Press, 1982, 480 s.
3. Booker, M.K. *Dystopian Literature: A Theory and Research Guide*. Westport: Greenwood Press, 1994, 408 s.
4. Boulle, P. *E=mc²*. Paris: René Julliard, 1957, 96 s.
5. Boulle, P. *Le Jardin de Kanashima*. Paris: René Julliard, 1964, 320 s.
6. Boulle, P. Maymunlar gezegeni. İstanbul: İthaki, 2017, 269 s.
7. Cauvin, P. *E=Mc2 Mon Amour,* Livre de poche, 1983, 245 s. URL:https://www.scribd.com/document/461901707/E-mc2-mon-amour-Patrick-Cauvin-pdf
8. Deleuze, G. *Cinéma 1: L'image-mouvement*. Paris: Minuit, 1983, 296 s.
9. Steinby L. Bakhtin's Concept of the Chronotope: The Viewpoint of an Acting Subject / L.Steinby // Bakhtin and His Others / ed. L. Steinby, T. Tintti. – London: Anthem Press, 2013. – p.105-126.


## Хронотопические модели и их поэтическая функция в литературе фэнтези

**Айдан Нагиева**
Бакинский Евразийский Университет
E-mail: nagiyeva.99@inbox.ru

**Резюме.** В данной статье анализируются различные семантические и структурные функции хронотопа в научной фантастике на примере ключевых произведений Пьера Буля, Герберта Уэллса и Стивена Кинга. Творчество всех трёх авторов демонстрирует широкий спектр хронотопов, в которых время и пространство раскрываются с различными идеологическими, философскими и психологическими оттенками. В произведениях Пьера Буля, особенно в таких, как «Планета обезьян», «Сад Канасимы» и «E=mc²», хронотоп выступает то как инструмент технологической и социальной критики, то как эстетическое и контемплятивное пространство. В «Планете обезьян» моделируется дистопическое общество будущего, символизирующее упадок человеческой культуры. «Сад Канасимы» представляет собой пример поэтического хронотопа, сформированного под влиянием восточной эстетики и философии. Подобный подход Буля иллюстрирует столкновение и возможный синтез различных моделей цивилизаций. В произведениях Герберта Уэллса «Машина времени», «Война миров», «Остров доктора Моро» хронотоп строится на синтезе научного мышления, социальных тревог и этических вопросов. Время и пространство используются не только как основа приключения, но и как способ поставить под сомнение границы человеческой природы. Уэллс изображает хронотопы, в которых художественно воплощаются этические и социополитические проблемы, возникающие вследствие технологического прогресса. У Стивена Кинга в таких произведениях, как «Оно», «Сияние», «11/22/63», «Доктор Сон», «Кладбище домашних животных», «Туман», хронотоп получает преимущественно психологическое и метафизическое измерение. Время становится средством психологического столкновения прошлого и настоящего, а пространство часто представлено как чуждое,

опасное и наполненное олицетворёнными страхами. В романах Кинга хронотоп строится на эстетике метафизического ужаса, фрагментации сознания и давления памяти. Таким образом, хронотоп в творчестве всех трёх писателей выступает не как фиксированная структура жанра, а как динамичный, многослойный и глубоко осмысленный компонент. Технологическая критика, идеологические конфликты, духовные поиски и эстетическое созерцание составляют сущность этих хронотопных моделей.
**Ключевые слова:** фантастическая литература, хронотоп, Стивен Кинг, Герберт Уэллс, Пьер Буль